Kazus

Ərizəçilərin (1-ci və 2-ci ərizəçi) rəsmi nikahı olmasa da, ailə kimi 1989-cu ildən birlikdə yaşayırlar. O vaxt onlar B. şəhərində yaşayırdılar, həmin şəhərdə birinci ərizəçinin mənzili var idi və o, 2013-cü ildə onu qızına bağışlamışdır. Birinci ərizəçinin anası və atasından qalma X. kəndində torpaq sahəsi var. Həmin torpaq sahəsi 625 kv.m-lik olsa da, digər vərəsələr nəzərə alınmaqla 1-ci ərizəçinin torpaq sahəsindəki payı onun 77,5% hissəsini təşkil edir. Həmin torpaq sahəsində sökük birmərtəbəli kabin var. 2004-cü ilə kimi sürücü işləyən ikinci ərizəçi ciddi xəstəlik - miokard infarkt keçirir və ondan sonra işləmək imkanında olmur. 2005-ci ildə o, fəaliyyət qabiliyyətsiz hesab olunur və ona əlillik müavinəti təyin olunur. O vaxtdan ərizəçilər B. şəhərindən X. kəndinə köçürlər, çünki şəhərdə yaşayış baha olduğundan orada yaşaya bilmirdilər. Onlar bütün vəsaitlərini həmin sökük birmərtəbəli kabinə qoyub kərpicdən normal bir otaqlı ev tikmək qərarına gəlirlər. Onlar tikintiyə icazə üçün müraciət etmirlər. Yenidənqurma 2004-2005-ci illərdə həyata keçirilir. O vaxtdan ərizəçilər həmin evdə yaşayırlar. 2006-cı ildə torpaq sahəsinin həmmülkiyyətçiləri (digər vərəsələr) birinci ərizəçiyə həyata keçirilmiş yenidənqurma işlərinə dair etirazlarını bildirirlər. Hökumət qeyd edir ki, rekonstruksiya işlərinin 2009-cu ilə qədər başa çatdığı sübut olunur. 2006-cı ildə birinci ərizəçinin atası və anasının digər on vərəsəsi iddia qaldıraraq 625 kv.m-lik torpaq sahəsinin 140 kv.m. hissəsinin və onun üzərindəki sökük kabinin yerində inşa edilmiş tikiliyə hüquqlarının tanınması üçün məhkəməyə müraciət edirlər. Yekun məhkəmə qərarına əsasən iddia təmin olunur. Qanunvericilik qanunsuz tikiliyə mülkiyyət hüquqlarının tanınmasına yol verir. Məhkəmə birinci ərizəçinin torpaq sahəsinin 484 kv.m. hissəsinə hüququnu da təsbit edir. İllər ərzində birinci ərizəçi işsizdir. 2011-ci ildə həmmülkiyyətçilərin təşəbbüsü ilə bələdiyyə tikiliyə baxış keçirir və onun qanunsuz olaraq inşa edildiyini müəyyən edir və bu barədə birinci ərizəçi xəbərdar edilir. 2012-ci ildə bələdiyyə bu məsələni Tikintiyə Nəzarət İdarəsinin nəzərinə çatdırır və həmin İdarə qanunsuz tikintinin sökülməsi haqqında qərar qəbul edir. 2012-ci ildə İdarənin əməkdaşları yenidən tikintiyə baxış keçirirlər və onun qanunsuz, tikintiyə icazə sənədi olmadan tikildiyini müəyyən edirlər və həmin tikintinin yerli qanunvericiliyə uyğun olaraq söküntüsü haqqında qərar qəbul edirlər. Ərizəçi həmin qərardan məhkəməyə şikayət verir. Yerli məhkəmələr hər üç instansiya tikintinin 2004-2005-ci illərdə tikintiyə icazə sənədi olmadan qanunsuz inşa edildiyini müəyyən edir və sökülməli olması qənaətinə gəlirlər. Qanunvericiliyə əsasən, qanunsuz tikili birmənalı olaraq sökülməli və bu zaman yerli orqanlara söküntüyə məruz qalan şəxslərə tənasübsüz (qeyri-mütənasib) zərər dəyən hallarda söküntüdən çəkinmək - sökməmək kimi hüquq verməmişdir.Ərizəçiyə tikintinin öz qüvvə və vəsaiti hesabına sökülməsi üçün vaxt verilir, lakin həmin müddətdə o, tikintini sökmür. Tikintiyə Nəzarət İdarəsi qanunsuz tikilinin sökülməsi üçün özəl təşkilatlar arasında tender elan edir. Bu arada Ombusman tərəfindən Tikintiyə Nəzarət İdarəsinə müraciət olunaraq formal olaraq qanuni olsa da, tikintinin sökülməsi ərizəçilər üçün qeyri-mütənasib məhrumiyyətlərə yol açdığından söküntünün dayandırılmasını xahiş edir. Ərizəçilər AİHM-ə müraciət etdikdən və Hökumətə bu barədə məlumat verildikdən sonraTikintiyə Nəzarət İdarəsi bələdiyyəyə müraciət edərək ərizəçilər üçün yaşayış sahəsinin araşdırılmasını xahiş edir. Bələdiyyə birinciərizəçi ilə söhbət apararaq sosial evdə məskunlaşmasını təklif edir, sonuncu isə bundan imtina edərək öz evində yaşamaq istədiyini bildirir. Bələdiyyədən hələ cavab alınmadığından söküntü həyata keçirilməmişdir.

Ərizəçilər AİHM-ə müraciət edərək yaşadıqları ev söküldüyü təqdirdə, 8-ci maddəyə əsasən mənzil toxunulmazlığı hüquqlarının, eləcə də 1 saylı Protokolun 1-ci maddəsinə əsasən mülkiyyət hüququnun pozulacağını iddia edirlər.

Konvesiyanın qeyd edilən maddələrinin pozuntusuna yol verilmişdirmi? Fikrinizi əsaslandırın.

Hazırladı: Xəqani Məmmədov

Elnur Həsənov